Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: *pedaqogika elməri doktoru, professor*
**Hümeyir Hüseyn oğlu Əhmədov**

Rəsmi opponentlər: *təhsildə ölçmə və qiymətləndirmə üzrə fəlsəfə* doktoru, professor
**Kan Hüseyn oğlu Adnan**

*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**Allahverdi İsgəndər oğlu Quliyev**

*pedaqogika üzrə fəlsəfə doktoru*
**Lalə Akif qızı Məmmədli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: *fizika-riyaziyyat elmləri doktoru, professor*
**Hamlet Abdulla oğlu İsayev**

Dissertasiya şurasının elmi katibi: *filologiya elmləri doktoru, dosent*
**İsaxan Abdulla oğlu İsaxanlı**

Elmi seminarın sədri: *pedaqogika elməri doktoru, professor*
**Akif Nurağa oğlu Abbasov**

**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ALİ MƏKTƏBLƏRDƏ TƏRBİYƏ İŞİNİN PLANLAŞDIRILMASI VƏ TƏŞKİLİ ÜZRƏ İŞİN SİSTEMİ

İxtisas: 5802.01 - təhsilin təşkili və planlaşdırılması

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Zülfiyyə Şəmsəddin qızı Şiriyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: *pedaqogika elməri doktoru, professor*
**Hümeyir Hüseyn oğlu Əhmədov**

Rəsmi opponentlər: *təhsildə ölçmə və qiymətləndirmə üzrə fəlsəfə doktoru, professor*
**Kan Hüseyn oğlu Adnan**

*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**Allahverdi İsgəndər oğlu Quliyev**

*pedaqogika üzrə fəlsəfə doktoru*
**Lalə Akif qızı Məmmədli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: *fizika-riyaziyyat elmləri doktoru, professor*
_____________ **Hamlet Abdulla oğlu İsayev**

Dissertasiya şurasının elmi katibi: *filologiya elmləri doktoru, dosent*
_____________ **İsaxan Abdulla oğlu İsaxanlı**

Elmi seminarın sədri: *pedaqogika elməri doktoru, professor*
_____________ **Akif Nurağa oğlu Abbasov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Gənc nəslin təhsili və tərbiyəsi problemi qlobal miqyasda həyatın bütün aspektlərinə təsir göstərərək, dövlətin iqtisadi-mədəni inkişafında, millətin tərəqqisində xüsusi əhəmiyyət kəsb edir. Hazırki dövrdə gənclərin geniş dünyagörüşünə, yüksək əxlaqi keyfiyyətlərə malik, ahəngdar inkişaf etmiş, mənəvi zənginlik və fiziki kamilliyi özündə birləşdirən şəxsiyyət kimi tərbiyə olunması məsələsi aktualdır.

Dövlətin təhsilli, yüksək əxlaqlı, işgüzar, seçim vəziyyətində sərbəst qərarlar qəbul edə bilən, ölkənin gələcək taleyi üçün məsuliyyət hissinə malik vətəndaşın tərbiyəsinə sosial sifarişi, pedaqoji proses qarşısında qoyulan hərtərəfli inkişaf etmiş şəxsiyyət tələbi "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu[1], "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"[2], "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu[3] və digər əhəmiyyətli sənədlərində öz əksini tapır.

Elm və texnikanın sürətli inkişafı, insanların həyat tərzinin, dəyərlərin və meyarların dəyişməsi, bu kimi başqa amillər tərbiyəyə münasibətin dəyişilməsini, yeni aspekdə işıqlandırılmasını tələb edir. Gənclərin əhatə dairəsi, internet, sosial şəbəkələr, kütləvi informasiya vasitələrinin imkanları yeni tərbiyə məkanı yaradır ki, onların da təsirləri nəzərə alınmadan ailə daxilində və ya hər hansı bir təhsil müəssisəsi çərçivəsində böyüməkdə olan gənc nəslin tərbiyəsini səmərəli təşkil etmək mümkün deyildir.

Ali məktəb mühitində tələbələr yalnız təlim prosesinə deyil, həm də tərbiyə prosesinə daxil edilir. Ali məktəblərdə təhsil müddəti gənclərin öz yaşıdları ilə sıx ünsiyyət vaxtı, qabiliyyətlərini maksimal göstərməyə və reallaşdırmağa cəhdləri, dünyagörüşünün və davranış

---

[1] "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
[2] "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" / Azərbaycan məktəbi, 2013, №5
[3] "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu. (09.04.2002) internet /resurs: URL: www.mys.gov.az

modellərinin formalaşmasıdır. Tərbiyə prosesi şəxsiyyətin təhsil səviyyəsinə, biliklərinin genişlənməsinə təsir göstərir, təlimdə onların fəallıq və səyini stimullaşdıran amil kimi çıxış edir. Tərbiyə şəxsiyyətin sosiallaşmasının məqsədyönlü prosesi kimi vahid təhsil prosesinin ayrılmaz hissəsidir.

Son illər ərzində baş verən qlobal sosial dəyişikliklər ali məktəb tələbələrinin təlim-tərbiyəsinə ənənəvi yanaşmanın yenidən nəzərdən keçirilməsini zəruri edir. Təlim-tərbiyənin məzmununun təhsil alanların imkan və maraqlarına uyğun dövlətin, cəmiyyətin və şəxsiyyətin tələbatı əsasında qurulması istiqamətində elmi tədqiqatların aparılmasına, problemin nəzəri aspeklərinin işlənilib hazırlanmasına ehtiyac vardır.

İnsanın inkişaf perspektivi onun aldığı təhsilin keyfiyyətindən və tərbiyəsindən asılıdır. Cəmiyyətin elitar təbəqəsinin formalaşması, maddi sərvətlərin insan kapitalına çevrilməsində, insanın daha sivil və kamil səviyyəyə yüksəlməsində, ixtisaslı mütəxəssis kadr hazırlığında ali məktəblərdə təlim-tərbiyə işlərinin səmərəli təşkili olduqca əhəmiyyətlidir. Müasir dövrdə ali təhsilin üzərinə ailənin, cəmiyyətin və dövlətin maraqlarına uyğun zəruri biliklərə, həyati bacarıqlara, İKT-dən səmərəli istifadə vərdişlərinə yiyələnən, mənəvi dəyərlər zəminində tərbiyə olunan vətəndaş yetişdirmək vəzifəsi düşür.

Gəncliyin müasir tələblər səviyyəsində yetişməsi ölkənin, xalqın firavan gələcəyinin daha etibarlı təminatına zəmin yaradır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Gənclər Siyasəti üzrə Birinci Qlobal Forumundakı (28.10.2014-cü il) çıxışında belə qeyd etmişdir: *“Azərbaycan öz prioritetlərini və məqsədlərini aydın şəkildə müəyyən etmiş gənc, müstəqil, dinamik və müasir ölkədir. Biz, Azərbaycan gəncləri kimi böyük potensial, uğurumuzun aparıcı qüvvəsi ilə gələcəkdə daha böyük nailiyyətlərə imza atacağıq”.*

Azərbaycan Respublikasında gənclər siyasətinin də əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına, sosial problemlərinin həllinə və hüquqlarının müdafiəsinin təmin olunmasına kömək

etməkdir.

Respublikamızda aparılan təhsil islahatları, Bolonya təhsil prosesinə keçid, təhsilimizin dünya standartlarına uyğunlaşması, ali təhsilin ardıcıl olaraq təкmilləşdirilməsi yüksək ixtisaslı kadr hazırlığında, tədris müəssisələrində təlim-tərbiyə işlərinin təşkilində dəyişikliklər tələb edir. Hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək məqsədi aktual olsa da, problemə yeni yanaşmalar, mükəmməl elmi kriteriyalar hazırlamaq zərurəti yaranmışdır. Belə ki, yeni təhsil sisteminə keçidin əsasında yeni tərbiyə sisteminə keçid dayanır.

Keyfiyyətli ali təhsil və mükəmməl tərbiyə gənclərin uğurlu gələcəyinin təminatıdır. Gənclərin ali məktəbdə təhsili yalnız onların seçdikləri ixtisasa yiyələnməkləri ilə məhdudlaşmır, universitet mühiti tələbələrin şəxsiyyət kimi formalaşmasına da öz təsirini göstərir. Təhsilin keyfiyyətliliyi və səmərəliliyi təlim və tərbiyə proseslərinin qarşılıqlı təsirindən, eləcə də onların keyfiyyəti və səmərəliliyindən asılıdır.

Deyilənləri nəzərə alaraq, tədqiqat işinin aktuallığını müasir tərbiyə sistemindəki yeniliklərlə bağlamaq olar. Bu baxımdan dissertasiya işində tərbiyə işinin ümumi sosial və pedaqoji funksiyası, məqsəd və vəzifələri, qanunauyğunluqları, əsas prinsipləri, eləcə də tələbələrdə sosial kompetensiyaların formalaşdırılmasına yönəldilmiş tərbiyəvi fəaliyyətin planlaşdırılması və təşkilinin optimal yolları öz əksini tapıb.

Araşdırdığımız problemin ayrı-ayrı aspektləri bir sıra pedaqoq, psixoloq və sosioloqlar tərəfindən tədqiq edilmişdir. Azərbaycanda son dövrlərdə tərbiyə işi ilə bağlı tədqiqat aparan alimlər arasında Y.Talıbov, Ə.Ağayev, Z.Qaralov, N.Kazımov, Ə.Əlizadə, Ə.Həşimov, H.Əlizadə, L.Qasımova, H.Əhmədov, A.Abbasov, P.Əliyev, F.Rüstəmov, R.Hüseynzadə, F.Sadıqov və başqalarının adlarını qeyd etmək olar. Onların əsərlərində tərbiyə işinin xüsusiyyətləri, qanunauyğunluqları və prinsipləri, tərkib hissələri, təşkili metodları geniş təhlil olunmuşdur.

Bir sıra görkəmli tədqiqatçıların (L.Baybarodova, L.Baykova, L.Novikova, N.Borıtko, N.Selivanov, N.Talançuk, E.Bondarevskaya, N.Şurkova və b.) işlərində tədris müəssisələrinin tərbiyə funksiyası

dəyişən şərtlər aspektində nəzərdən keçirilmiş, tərbiyə sistemlərinin idarəedilməsi, onların qanunauyğunluqları tədqiq edilmişdir. N.Boldıreva, Y.Sokolnikov, T.İlina və digər pedaqoqların işlərində planlaşdırmanın prinsipləri, funksiyaları, formaları və metodları təhlil edilmişdir.

Tərbiyə prosesinin səmərəliliyinin yeni forma və metodlarının işlənib hazırlanması, pedaqoji diaqnostika problemlərinə Ə.Abbasov, A.Mehrabov, L.Qasımova, Ə.Paşayev, H.Əhmədov, İ.Podlasıy və digər alimlərin tədqiqatları yönəlmişdir.

**Tədqiqatın obyekti** ali məktəb mühitində tərbiyə prosesi və onun iştirakçılarıdır.

**Tədqiqatın predmeti** ali təhsil müəssisələrində tərbiyə işinin planlaşdırılması şərtləri və təşkili yolları üzrə işin sistemidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müasir ali məktəblərdə tələbələrdə sosial kompetensiyaların inkişafına yönəldilmiş, onların fiziki, mənəvi və psixoloji cəhətdən sağlam formalaşmasına dəstək olacaq tərbiyə işinin pedaqoji şərtlərinin elmi-nəzəri baxımdan əsaslandırılması və işlənib hazırlanması, eyni zamanda tərbiyəvi fəaliyyətin səmərəli planlaşdırılması və təşkilində nəzərə alınmasından ibarətdir.

Tədqiqatın fərziyyəsinə görə ali məktəbdə tərbiyə işinin planlaşdırılmasının elmi-nəzəri problemləri araşdırılarsa, tərbiyə prosesinin təşkilinin optimal yolları tədqiq edilərsə, universitetin sosial-mədəni mühiti tələbələrin şəxsiyyət kimi formalaşması üçün faydalı olar:

-tələbə-gənclər özünüreallaşdırmaq və özünüinkişaf imkanı qazanarlar;

-akademik uğurların əldə olunması tənzimlənər;

-gənclər arasında zərərli vərdişlər əleyhinə təbliğat güclənər;

-sağlam həyat tərzinə pozitiv münasibət formalaşar;

-etik normalara, humanist dəyərlərə motivasiya yaranar;

-gələcək ixtisas sahəsində səriştəlilik artar və s.

Mövzunun kifayət qədər tədqiq olunmadığı nəzərə alınaraq, tədqiqatın qarşısına qoyulmuş məqsədə nail olmaq üçün tədqiqatın məqsəd, obyekti və predmetinə müvafiq olaraq aşağıdakı **vəzifələrin**

həllinə çalışılmışdır:

-ali məktəbin sosiomədəni mühitində tərbiyə işinin mahiyyəti və zəruriliyini elmi cəhətdən əsaslandırmaq;

-ali məktəb tələbələrinin problemlərini araşdırıb pedaqoji təhlil etmək;

-ali məktəbdə planlaşdırma işinin prinsiplərini müəyyən etmək;

-tələbələrlə tərbiyə işinin xüsusiyyətləri və təşkili yollarını tədqiq etmək;

-ali məktəblərdə tərbiyə işinin təşkilində müəllimin rolunu və funksiyalarını ümumiləşdirərək təhlil etmək;

-tələbələrdə sosial kompetensiyaların inkişafına yönəldilmiş tərbiyə işinin təşkilinin pedaqoji şərtlərini işləyib hazırlamaq;

-tərbiyə fəaliyyətin planlaşdırılmasında və təşkilində yeni texnologiyaların tətbiqi ilə bağlı məlumatlar əldə etmək.

**Tədqiqat metodları.** Tədqiqat işində aşağıdakı metodlardan istifadə olunmuşdur: nəzəri təhlil və tərkib, pedaqoji müşahidə, pedaqoji müsahibə, anketləşdirmə və pedaqoji eksperiment.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Hazırda təhsildə başlıca vəzifə müstəqil Azərbaycanın milli-mənəvi dəyərlərini dərindən mənimsəmiş vətəndaş, qloballaşan dünyada rəqabətəqabil, peşəkar kompetensiyalara və biliklərə malik vətənpərvər şəxsiyyət yetişdirməkdir. Azərbaycan universitetlərinin üzərinə düşən bu missiyanın yenidən dəyərləndirilməsi və təhsil-tədqiqat-innovasiya məkanı olmaqla yanaşı, gənclərin hərtərəfli inkişafı üçün tərbiyə mühiti kimi təhlil olunması vacibdir.

2. Gənclərin ali məktəbdə təhsili onların seçdikləri ixtisasa yiyələnmələri ilə məhdudlaşmır, universitet mühiti tələbələrin şəxsiyyət kimi formalaşmasına öz təsirini göstərir. Tələbələrdə ümummədəni və eləcə də peşəkar kompetensiyaların formalaşmasına imkan verən sosial-psixoloji şəraitin və sosiomədəni tərbiyəedici mühitin yaradılması başlıca şərtdir.

3. Tərbiyə işinin planlaşdırılmasında əsas məqsəd pedaqoji fəaliyyəti tənzimləmək, pedaqoji prosesdə planlılıq və sistemlilik, ardıcıllıq və nəticələrin idarə olunması kimi tələblərin yerinə yetirilməsini təmin etməkdir. Planlaşdırma kompleks vəzifələrin

həyata keçirilməsi üçün səmərəli metod və üsulların, hər növ resursların müəyyənləşdirilməsini nəzərdə tutur.

4. Tərbiyə işinin təşkilinin vasitə və metodları tərbiyəvi fəaliyyətin məqsəd və məzmunu ilə bağlı olduğundan tərbiyə prosesinin reallaşdırılmasının mühüm ünsürlərindəndir. İnsan fəaliyyəti prosessual baxımdan bir neçə komponentdən (fəaliyyətin təşkili, stimullaşdırma, nəzarət) ibarətdir. Tərbiyə işinin təşkili fəaliyyətin ayrı-ayrı komponentlərinə deyil, bütövlükdə fəaliyyətin özünə istiqamətlənir. Bu mənada tərbiyə işinin təşkili fəaliyyətin təşkilini, stimullaşdırmağı, prosesə nəzarəti təmin etməlidir.

5. Müəllim təhsil müəssisəsində əsas sima hesab olunur. Lakin müasir dövr müəllimin funksiyalarına tələbləri dəyişir: öz imkanlarını obyektiv şəkildə qiymətləndirmə, dünya təhsil məkanının inkişaf tendensiyalarına uyğunlaşma və s.

6. Ali məktəbdə tərbiyə işinin əsas hədəfi tələbə şəxsiyyətinin mədəni, hərtərəfli inkişafı, dəyişən sosial mühitdə yaşamağa qabil olan, ictimai cəhətdən fəal vətəndaş və mütəxəssis kimi formalaşmasıdır.

**Tədqiqatın elmi yeniliyi** onunla izah olunur ki, burada ilk dəfə olaraq tələbələrdə sosial kompetensiyaların inkişafına istiqamətlənmiş tərbiyə işinin təşkilinin pedaqoji şərtləri müəyyənləşdirilmiş və nəzəri cəhətdən əsaslandırılmış, ali təhsil sistemində baş vermiş dəyişikliklər şəraitində müasir ali məktəbdə tərbiyə işinin təşkili xüsusiyyətləri və pedaqoji problemləri aşkarlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiyanın elmi nəticələri, irəli sürülən ideyalar və tövsiyələr pedaqogika sahəsində tədqiqat aparan doktorantlar, müəllimlik ixtisasına yiyələnən tələbələr üçün maraq kəsb edə bilər. Tədqiqat işi ali məktəblərdə tərbiyə işinin həyata keçirilməsi istiqamətində faydalı ola bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyanın nəticələrinin ali məktəbdə tərbiyə işinin planlaşdırılması və təşkili təcrübəsində tətbiq edilməsi mümkündür. Eyni zamanda tərbiyə nəzəriyyəsi ilə bağlı mühazirələrdə tədqiqat materiallarından istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələrinin aprobasiyası bir sıra beynəlxalq, respublika səviyyəli və digər elmi konfranslarda

həyata keçirilmişdir. Dissertasiya işinin mövzusu üzrə 19 iş, o cümlədən elmi mətbuatda 10 məqalə (onlardan 3-ü xaricdə) və 9 konfransda məruzə tezisləri (onlardan 2-si xaricdə) çap olunmuşdur. Məqalələr Azərbaycan və Rusiya AAK-ları tərəfindən tövsiyə olunmuş jurnallarda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi giriş, 10 paraqrafı özündə birləşdirən üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələri əhatə edir. Tədqiqat işinin giriş hissəsi 24697, I fəsil 97105, II fəsil 45257, III fəsil 64154, nəticə hissəsi 7455, istifadə edilmiş ədəbiyyat siyahısı 25093, əlavələr 20749 işarədən ibarətdir. İşin ümumi həcmi 148 səhifədən (284510 işarədən) ibarətdir. Dissertasiya işində müxtəlif elmi-metodik və pedaqoji ədəbiyyatdan, eləcə də internet resurslardan istifadə olunmuşdur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, obyekti və predmeti, mövzunun işlənmə səviyyəsi, işin məqsəd və vəzifələri, elmi fərziyyəsi açıqlanır, eləcə də tədqiqat metodları, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın aprobasiyası və tətbiqi barədə yığcam məlumat verilir.

Tədqiqat işinin **"Ali məktəblərdə tərbiyə işi: məqsəd və vəzifələr"** adlanan I fəsli üç paraqrafı özündə birləşdirir. Fəslin ***"Elmi-metodik və pedaqoji ədəbiyyatda problemin qoyuluşu"*** adlı birinci paraqrafında şəxsiyyətin inkişafı və tərbiyəsi ilə bağlı konsepsiyalar, bir çox pedaqoji, psixoloji və sosioloji tədqiqatların mövzusuna çevrilmiş tərbiyə işinin mahiyyəti, xüsusiyyətləri və prinsipləri araşdırılır, son illərdə çap olunmuş əsərlər və tədqiqatlar problem baxımdan qiymətləndirilir.

İnsan şəxsiyyəti, onun fərdi, özünəməxsus potensialı, həmçinin yaradıcılıq keyfiyyətlərinin öyrənilməsi hər zaman tədqiqatçılarda

böyük maraq doğurmuşdur. Gənc nəslin tərbiyəsi ideyası cəmiyyətin informasiyalaşdırılması və sosial-iqtisadi cəhətdən inkişaf etdiyi bir vaxtda pedaqogika elminin bir çox ənənəvi problemlərini aktuallaşdırmışdı.

Ali təhsil müəssisələrinin tələbələrinin tərbiyəsinə dair elmi-metodik ədəbiyyatın tədqiqi XX-XXI əsrlərdə hər bir sahədə reallaşdırılan islahatlar sayəsində baş vermiş dəyişikliklərin müasir gənclərin tərbiyəsi üçün cəmiyyət qarşısında yeni məqsəd və vəzifələri müəyyən etdiyini deməyə əsas verir.

Araşdırdığımız problemin ayrı-ayrı aspektləri bir sıra pedaqoq, psixoloq və sosioloqlar (B.Slastenin, E.Burdukovskaya, Y.Qilinskiy, E.Barışnikov, Ə.Həşimov, Ə.Ağayev, A.Mudrik, L.Mardaxayev, Ə.Əlizadə, A.Abbasov, M.Montessori, P.Pidkasistıy, Y.Rapatseviç, İ.Podlasıy, M.Baxtin, X.Liymets, A.Kolçina, M.Stankin, N.Talançuk, L.Novikova, E.Bondarevskaya və başqaları) tərəfindən öyrənilmişdir. Tədqiqatçılar tərbiyəni *ictimai hadisə, fəaliyyət, dəyər, sistem, təsir, qarşılıqlı təsir, şəxsiyyətin idarə olunması prosesi* kimi nəzərdən keçirirlər. Beləliklə, bu yanaşmalar tərbiyənin hər hansı bir aspektini əks etdirir, onu sosial reallığın bir fraqmenti kimi xarakterizə edir.

I fəslin ***"Tərbiyə işinin təşkili ali məktəbin mühüm fəaliyyət istiqaməti kimi"*** başlığı ilə təqdim edilən ikinci paraqrafında tərbiyə işinin təşkili komponentləri, ali təhsil müəssisəsi struktur bölmələri çərçivəsində həyata keçirilən tərbiyəvi işlər təhlil olunur.

Universitetlərin mühüm fəaliyyət istiqaməti kimi nəzərdən keçirilən tərbiyə işinin təşkili üzrə işin sistemi bir sıra komponentləri birləşdirən mürəkkəb struktura malikdir:

-başlanğıc konsepsiyada ifadə olunan *məqsədlər*;
-nəzərdə tutulan ideyaların reallaşdırılmasını təmin edən *fəaliyyət;*
-fəaliyyəti təşkil edən və onun iştirakçısı olan *subyektlər;*
-fəaliyyət və ünsiyyətdə yaranan *münasibət;*
-subyektin mənimsədiyi *mühit;*
-sistemin komponentlərini birləşdirən və onun inkişafını təmin edən *idarəetmə.*

Ali məktəb şəraitində tələbə - gənclərlə tərbiyə işi gələcək

mütəxəssislərdə peşəkarlıq baxımından lazımi və əhəmiyyətli şəxsi keyfiyyətlərin formalaşması üzrə müəllim və tələbələrin birgə fəaliyyəti prosesi kimi nəzərdən keçirilir. Bu, həmçinin onların özünüinkişaf və özünüaktuallaşdırması üçün şəraitin yaradılması deməkdir. Qoyulmuş məqsədə əsaslanaraq, universitetin prioritet fəaliyyət istiqaməti olan tərbiyə işinin təşkilində əsas hədəflər belə ümumiləşdirilmişdir:

-tələbələrin özünütərbiyə və özünüinkişafına, özlərini realizə etmələrinə, geniş sosial və peşəkar təcrübənin mənimsəməsinə köməklik göstərilməsi;

-tələbələrdə yüksək əxlaqi keyfiyyət və davranış normalarının tərbiyəsi;

-ən yaxşı ali məktəb ənənələrinin möhkəmləndirilməsi və inkişafı;

-gələcək mütəxəssislərdə seçdikləri peşənin sosial rolunun dərk etdirilməsi, peşə borcuna məsuliyyətli münasibətin formalaşdırılması;

-universitetin tələbə-gənclərində vətənpərvərlik şüurunun və aktiv vətəndaş mövqeyinin formalaşdırılması;

-demokratik, çoxmillətli cəmiyyətin dinamik inkişafı şəraitində tələbələrdə şəxsi və peşəkar əhəmiyyətli keyfiyyətlərin formalaşması, mənəvi cəhətdən inkişaf etmiş, perspektiv düşüncəli şəxsiyyətin tərbiyəsi üçün təşkilati-pedaqoji şərtlərin təmin olunması;

-tələbələrin ümummədəni səviyyəsinin, estetik şüur və zövqün, davranış, nitq və ünsiyyət mədəniyyətinin yüksəldilməsi;

-I kurs tələbələrinin ali məktəbin tələbə həyatına uyğunlaşması üzrə işin sisteminin təkmilləşdirilməsi;

-öyrənənlərin peşəkar və şəxsi inkişafına yönəldilmiş tələbə klublarının və birliklərinin fəaliyyətinin genişləndirilməsi;

-ali məktəb məzunlarında motivasiya və sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması, idman seksiyalarına tələbələrin cəlb edilməsi;

-tələbə mühitində narkomaniya, tütün və spirtli içkilərdən istifadə əleyhinə, millətçilik və ekstremizm təzahürlərinə qarşı profilaktik kompleks tədbirlərin həyata keçirilməsi;

-təhsil subyektləri arasındakı münasibətlərin humanizm prinsipi

əsasında formalaşması;

-tələbə-gənclərin tədrisdənkənar, sosial əhəmiyyətli fəaliyyətin təşkilinə cəlb edilməsi, tələbə aktivlərinə idarəçilik fəaliyyətinin əsaslarının öyrədilməsi, eləcə də ali məktəbin məzunlarında liderlik keyfiyyətinin formalaşdırılması;

-ali məktəbdə tələbə təşəbbüslərinin inkişafı və müxtəlif tələbə layihələrinin reallaşdırılması üçün şəraitin yaradılması;

-ali məktəb tələbələrinin sosial müdafiəsi və onlara psixoloji dəstəyin təmin edilməsi;

-universitetin tələbə yataqxanalarında tərbiyəvi və sosial fəaliyyətin təkmilləşdirilməsi;

-tərbiyəvi işlər və sosiomədəni fəaliyyət sahəsində ali məktəblərarası və idarələrarası qarşılıqlı əlaqələrin təşkili.

Dissertasiya işinin I fəslinin ***“Tələbə-gənclərin şəxsiyyət kimi formalaşmasında tərbiyə işinin rolu”*** adlanan 3-cü paraqrafında məsələyə geniş aspektdən yanaşılmış, tələbələrin hərtərəfli şəxsiyyət kimi formalaşmasında tərbiyə işinin rolu və əsas tərkib hissələri təhlil edilmiş, məqsəd və vəzifələri göstərilmişdir:

*İntellektual:* tələbə-gənclərdə məntiqi təfəkkürü, intellektual potensialı, tədqiqatçılıq bacarığını, müstəqil düşünmə qabiliyyətlərini inkişaf etdirmək; onları bilik, bacarıq və vərdişlərlə silahlandırmaqla elmi dünyagörüşü formalaşdırmaq; mütaliəyə, yeni biliklərin əldə olunmasına maraq tərbiyə etmək, özünütəhsil işlərinə cəlb etmək.

*Vətəndaşlıq-vətənpərvərlik:* tələbələrdə vətəndaşlıq mövqeyi və siyasi mədəniyyəti formalaşdırmaq; dövlət qanunları və simvollarına hörmət; vətənpərvərlik hissinin, vətənə xidmətə hazır olmağı tərbiyə etmək; dövlətin maraqlarının müdafiəsi üzrə vətəndaşlıq borcu, konstitusion vəzifələrin yerinə yetirilməsinə hazırlamaq.

*Hüquqi:* gənc nəsildə hüquqa və hüquq normalarına dair bilikləri formalaşdırmaq; konstitusiyaya, davranış normalarına əməl edilməsi, qanunun pozulması hallarına qarşı barışmazlıq tərbiyə etmək; hüquqi mədəniyyəti formalaşdırmaq;

*Mənəvi:* mənəvi şüur formalaşdırmaq ( milli-mənəvi şüur, soykökünə bağlılıq, milli mənlik, milli təəssübkeşlik və s.); mənəvi mövqe formalaşdırmaq (çətin məqamlarda fədakarlıq göstərmək,

insanlara qayğı və həssaslıqla yanaşmaq, yardım etmək və s.); mənəvi sima formalaşdırmaq (səbirlilik, tolerantlıq, nəzakətlilik, təvazökarlıq, mərhəmətlilik və s);

*Əxlaqi:* ümumbəşəri və milli əxlaq normaları formalaşdırmaq; şəxsi ləyaqət hissini (şərəf, azadlıq, bərabərlik, intizamlılıq və s.) tərbiyə etmək, ədəbli və nəzakətli ünsiyyət, ictimai davranış qaydaları haqqında mənəvi təcrübə və bilikləri aşılamaq;

*Peşə-əmək:* cəmiyyətdə əməyin rolu haqqında dolğun təsəvvür yaratmaq; gənclərdə yaradıcı əməyə tələbatı inkişaf etdirmək, əməksevərlilik, işgüzarlıq və təşəbbüskarlığı tərbiyə etmək; tələbələrin seçdikləri peşəyə oriyentasiyasına nail olmaq, rəqabətəqabil kadr hazırlığını təmin etmək;

*Mədəni-kütləvi və estetik:* gənclərdə estetik hisslər və tələblər, estetik şüur formalaşdırmaq; estetik zövqü və estetik qabiliyyətləri inkişaf etdirmək; dünya mədəniyyəti və incəsənəti haqqında biliklər sistemi formalaşdırmaq; təbiət, cəmiyyət və insani münasibətlərdə gözəllik və harmoniyanı dəyərləndirmək; yaradıcı qabiliyyətləri aşkar etməklə tələbələri fəaliyyətin müxtəlif növlərinə cəlb etmək.

*İdman-sağlamlaşdırıcı:* sağlam həyat tərzinə pozitiv münasibət formalaşdırmaq; gənc nəslin normal fiziki inkişafını və sağlamlığını təmin etmək; bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olmağa tələbat yaratmaq; fiziki mədəniyyət, gigiyena və təbabətə aid bilik və vərdişlər aşılamaq; sanitar-gigiyenik normalara, gün rejimi və düzgün qidalanma vərdişlərinə riayət etmək; zəruri olan başlıca iradi-mənəvi keyfiyyətləri (dözümlülük, çeviklik və s.) tərbiyə etmək; fiziki, mənəvi və psixiki möhkəmliyə nail olmaq.

*Ekoloji:* insanın təbiətdən asılılığı, onunla daim harmoniyada yaşamaq zərurətini anlatmaq; qlobal ekoloji düşüncənin əsaslarını formalaşdırmaq; yer üzündə həyatın əsasını təşkil edən təbiətə qayğı hissi tərbiyə etmək; gənc nəsli təbiəti mühafizə işlərinə cəlb etmək; təbii ehtiyatlara və maddi sərvətlərə qənaətcillik tərbiyələndirmək; gənc nəsli ekoloji problemlərə dair informasiya ilə təmin etmək;

*İqtisadi:* gənc nəsildə iqtisadiyyat, onun cəmiyyətdəki rolu, təsərrüfatçıllıq, sahibkarlığa dair biliklər formalaşdırmaq; tələbələri psixoloji və əməli cəhətdən iqtisadi fəaliyyətə hazırlamaq; iqtisadi

bilik, bacarıq və vərdişlər sistemini formalaşdırmaq; qənaətcillik, ictimai mülkiyyətə və s. qayğıkeş münasibət tərbiyə etmək;

Dissertasiyanın **“Tərbiyə işinin planlaşdırılmasının elmi-nəzəri və praktik problemləri”** adlanan II fəsli üç paraqrafdan ibarətdir. Fəslin ilk paraqrafında ***“Tərbiyə işinin planlaşdırılmasının mahiyyəti, məzmunu və əsas istiqamətləri”*** açıqlanır. Tərbiyə işinin planlaşdırılması tərbiyə prosesinin gələcək vəziyyəti və nəticələri haqqında təsəvvürlərin formalaşması, fəaliyyətin məzmun, forma, təşkili üsullarının və vasitələrinin seçilməsi, icra müddətinin və iştirakçıların müəyyənləşdirilməsindən ibarət pedaqoji idarəetmə funksiyası kimi nəzərdən keçirilir. Tərbiyə işinin planlaşdırılmasının mahiyyəti pedaqoji hadisə və proseslərin vəziyyətinin proqnozlaşdırılması və arzu olunan nəticələrin əldə edilməsi üçün fəaliyyəti nəzərdə tutan fərdlərin və ya qrupun imkanlarının reallaşdırılmasıdır.

II fəslin 2-ci paraqrafında ***“Tərbiyə işində planlaşdırmanın funksiya və prinsipləri”*** xarakterizə edilir. Pedaqoji planlaşdırmanın əhatə etdiyi funksiyaları aşağıdakı kimi xarakterizə edə bilərik:

-*Proqnozlaşdırıcı:* konkret hərəkətlərin vasitəsilə nəticələri təqdim etmək;

-*İstiqamətləndirici:* fəaliyyətin konkret istiqamətlərini müəyyən etmək;

-*Əlaqələndirici:* bir tərəfdən, fəaliyyətin necə, hansı vasitələrlə təşkil olunduğunu, onun subyekti və obyektini, digər tərəfdən fəaliyyətin növləri və subyektləri arasında qarşılıqlı əlaqəni əks etdirmək, habelə məkan və zamanı müəyyənləşdirmək;

-*Yoxlama:* plandan istifadə edərək, qarşıya qoyulan məqsədin reallaşdırılmasına nəzarətlə planın həqiqətə uyğunluğunu yoxlamaq;

-*Reproduktiv (təsviri):* müəyyən müddət sonra görülmüş işlərin həcmi və məzmununu plan üzrə bərpa etmək.

Planlaşdırma zamanı müvafiq prinsiplərin gözlənilməsi ilə tərtib edilən plan tərbiyə işinin təşkilində köməkçi vasitəyə, yaxud pedaqoji prosesin təşkilinə sistem yanaşmanı reallaşdıran sənədə çevrilir. Həmin prinsiplərin bir qismini nəzərdən keçirək:

*Məqsədəuyğunluq prinsipi* - planın məzmunu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və ali məktəblərin normativ-

hüquqi sənədlərinə, eləcə də təhsil müəssisəsinin işçilərinin vəzifə borclarına müvafiq olmalıdır.

*Aktuallıq prinsipi* - planlaşdırma dövlət və cəmiyyət həyatında mühüm hadisələri əks etdirməli, tərbiyə işinin təşkili sahəsində vacib məsələlərin həllinə istiqamətlənməlidir.

*Elmi-texnoloji prinsip* - planın tərtib edilməsi zamanı tərbiyəvi fəaliyyətin mahiyyətinə, əsas konsepsiyaların nəzəri müddəalarına, tələbələrlə tərbiyə işinin planlaşdırılması və təşkili probleminə dair tədqiqatlara və yeni texnolayihələrə istinad edilməsini nəzərdə tutur.

*Məqsədyönlülük prinsipi* - planlaşdırılmada işin məzmun və forması, konkret məqsəd və vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur. Hər bir fəaliyyət qarşıya qoyulan vəzifələrin həllinə kömək edir. Tədbirlərin reallaşdırılması planlaşdırılmış məqsədlərə və hədəflərə müvafiq pedaqoji və psixoloji cəhətdən əsaslandırılmalıdır.

*Sistemlilik prinsipi* - planlaşdırmanı tərbiyə prosesinin qarşılıqlı əlaqə və təsirdə olan komponentlərin məcmusundan ibarət mürəkkəb sistem kimi nəzərdən keçirməyə yönəldir.

*Konkretlik prinsipi* - müxtəlif kollektivlərdə həyata keçirilən işlərin əsaslandırılmamış şəkildə təkrarlanmasına yol vermir. Tərbiyə işinin bu və ya digər forma və metodlarının düzgün seçilməsi konkret kollektivdə pedaqoji vəziyyətin spesifik xüsusiyyətlərinin dərk olunmasından asılıdır. Belə bir prinsipin gözlənilməsi plana konkret işlərin daxil edilməsini, onların icra müddəti, təşkilatçılar və iştirakçıların müəyyənləşdirilməsini göstərir.

*İndividuallıq prinsipi* - planın hazırlanmasında və fəaliyyətin təşkilində tələbə-gənclərin fərdi xüsusiyyətlərinin nəzərə alınmasının zəruriliyini göstərır. Burada hər bir gəncin fərdiliyi dəyərdir, onun inkişafı prosesi modelləşdirilən sistemin başlıca vəzifələrindəndir.

*Ardıcıllıq prinsipi* - qarşıya qoyulan məqsədə nail olma yollarının və müddətinin ardıcıllığının düzgün müəyyən edilməsidir.

*Tsiklik prinsipi* - tərbiyə işinin hər yeni planının əvvəlkinin təhlili nəticələri əsasında formalaşdığını göstərir. Planın işlənib hazırlanması alqoritmi müəyyənləşdirilmiş vəzifələr və işin icra müddətinə müvafiq olaraq ardıcıl həyata keçirilən fəaliyyətin zəncirini təqdim edir: tərbiyə prosesinin hazırki vəziyyəti və ötən

müddət ərzində əldə olunmuş nəticələrin pedaqoji təhlili; kollektiv fəaliyyət və burada tərbiyə prosesinin modelləşdirilməsi; pedaqoji məqsədlərin konkretləşdirilməsi və düzəlişlərin edilməsi, tərbiyə işinin planının tərtibi.

Belə qənaətə gəlinir ki, pedaqoji planlaşdırmanın funksiya və prinsipləri tərbiyəvi fəaliyyəti nizamlamağa imkan verir, prosesin plana uyğunluğu, müntəzəmliyi, sistemliyi və idarə olunmasını təmin edir, tərbiyə prosesini cəmiyyətin həyatı, tələbələrin praktik fəaliyyəti ilə əlaqələndirir.

Planlaşdırılmanın səviyyələri aşağıda verilmiş sxem 2.2.1.-də xarakterizə edilmişdir:




***Sxem 2.2.1. Planlaşdırmanın səviyyələri***

II fəslin ***"Planlaşdırmanın tətbiqi vəziyyətinin diaqnostikası"*** adlanan 3-cü paraqrafda pedaqoji diaqnostika mövcud olan vəziyyəti aydınlaşdırmağa, tərbiyəlilik səviyyəsininin müəyyənləşdirilməsinə yönəldilmiş qiymətləndirici bir prosedur kimi dəyərləndirilmiş, planlaşdırılmada diaqnostikanın geniş yayılmış metodlarından olan sorğu, müxtəlif test, tamamlanmamış tezislərdən istifadə edilmişdir.

Müxtəlif ixtisaslar üzrə təhsil alan ali məktəb tələbələri arasında sorğu keçirilən zaman nəzərdə tutulan test nümunələri Cədvəl 2.2.1.-də təqdim olunur.

*Cədvəl 2.2.1.*
***Tələbələrlə keçirilən sorğuya daxil olan test nümunələri***

| | |
|---|---|
| ***Ali təhsili necə qiymətləndirirsiniz?***<br>a) ali təhsil prestij deməkdir;<br>b) ali təhsilli insanlar təhsilsizlərdən fərqlənir;<br>c) təhsil müəyyən sahədə bilik və təcrübə qazandırsa da, insanı dəyişmir;<br>ç) insan bilik və bacarıqları müstəqil qazana bilər, diplom isə işə düzəlmək üçün lazımdır;<br>d) öz variantınız. | *a b c ç d*<br>○ ○ ○ ○ ○ |
| ***İncəsənət nümunəsini dəyərləndirərkən nəyi nəzərə almaq lazımdır?***<br>a) müəllifin nüfuzunu;<br>b) incəsənət nümunəsinin emosional təsirini;<br>c) formatını;<br>ç) incəsənətlə maraqlanmıram;<br>d) öz variantınız. | *a b c ç d*<br>○ ○ ○ ○ ○ |
| ***Münaqişələrə münasibətiniz.***<br>a) münaqişələrdən uzaq olmağa çalışıram;<br>b) münaqişəyə meyilli deyiləm, ancaq öz mövqeyimi inadla müdafiə edirəm;<br>c) provakasiyalara asanlıqla təslim oluram, sonra peşimançılıq hissi keçirirəm;<br>ç) konflik vəziyyətləri xoşlamıram;<br>d) öz variantınız. | *a b c ç d*<br>○ ○ ○ ○ ○ |
| ***Hazırda gənclərin ən aktual problemi nədir?***<br>a) mənəvi boşluqlar;<br>b) işə düzəlmək və karyera;<br>c) zərərli vərdişlərə meyillilik;<br>ç) emosional-psixoloji problemlər;<br>d) öz variantınız. | *a b c ç d*<br>○ ○ ○ ○ ○ |

Hər hansı bir tələbə qrupunun diaqnostik xəritəsini yaratmaq üçün nəzərə alınacaq göstəricilər də (tələbələrin sağlıq durumu, dərsə davamiyyəti, tədrisdə qazandığı uğurlar, şəxsiyyətlərarası münasibətlər) tədqiqat işində təhlil olunmuşdur.

Belə bir qənaətə gəlmək olar ki, planlaşdırmanın tətbiqi vəziyyətinin diaqnostikası başlanğıc və son nəticələr arasında fərqləri qarşılaşdırır, tərbiyə prosesinin effektivliyini müəyyən edir.

Diaqnostika əldə olunan nəticələri onlara nail olma yolları və formaları ilə birlikdə öyrənərək, tərbiyə işinin dinamikasını göstərir.

**“Tərbiyə işinin təşkilinin optimal yolları”** adlandırılan III fəsil 4 paraqrafı özündə birləşdirir. 1-ci paraqrafda ***“Tərbiyə işinin səmərəli təşkilinin vasitə, forma və metodları”***nın təsnifatı verilir. Burada tələbələrin səriştəlilik parametrlərin, peşəkar və ümummədəni kompetensiyaların müəyyən edilməsi problemi də qoyulmuşdur.

Ümummədəni kompetensiyalara aiddir: ədəbi dilin normalarına əməl etməklə dövlət dilində sərbəst danışmaq, yazı vərdişlərinə malik olmaq; əsaslandırılmış fikir yürütmək; yeni mühitə tez uyğunlaşmaq; demokratik dəyərlərə, qanunun aliliyinə hörmət etmək; hadisələrin məntiqi ardıcıllığına dair biliklərə malik olmaq.

Peşəkar kompetensiyalara kommunikativ, İKT ilə işləmək, tədris prosesində əldə edilən biliklərin peşə fəaliyyətində tətbiqi və s. bacarıqlar aiddir.

Kompetensiya - şəxsiyyətin tədris və praktik fəaliyyətdə aktivləşən, formalaşan və inkişaf edərək istifadə olunan inteqrativ xarakteristikaların (şəxsi keyfiyyət, qabiliyyət, bilik, bacarıq və vərdişlərin) məcmusudur. Kompetensiyaları aşağıdakı kimi ümumiləşdirmək olar: əməkdaşlıq, məsuliyyətlilik, yeniliyə açıqlıq, təşkilatçılıq, müstəqillik, mühitə adaptasiya, ünsiyyət mədəniyyəti, işgüzarlıq, şəxsiyyətlərarası münasibətlərin qurulması, etik norma və qaydaların gözlənilməsi, rəqəmsal bacarıqlar, kreativlik, komandada işləmək bacarığı, liderlik, çevik qərar qəbul etmək, təşəbbüskarlıq, uğura canatma, stresə davamlılıq və s.

Onu da qeyd etmək lazımdır ki, gənclərin yaradıcılıq potensialının reallaşdırılması, fəaliyyətinin formalaşmasında müxtəlif növ müsabiqələr, olimpiadalar, viktorinalar, disputlar və həmçinin aktual mövzuların müzakirələrinin əhəmiyyətini qiymətləndirməmək mümkün deyil. Görüş, söhbət və mühazirələr, tematik gecələr, konfranslar, olimpiadalar və digər tədbirlər yeniyetmə və gənclərin bədii-estetik qavrayışına təsir göstərir, onlarda sərbəst ünsiyyət və birgə istirahət haqqında xoş təsəvvür yaradır. Ali məktəblərin tədris prosesində tərbiyəvi və inkişafetdirici fəaliyyətin intellektual oyun, breyn-rinq, açıq tribuna, müsabiqələr, təlimlər, təqdimat və ya

dəyirmi masalar kimi aktiv formalarından geniş istifadə edilməsi də məqsədəmüvafiqdir. Tələbələrlə həyata keçirilən tərbiyəvi tədbirlər aşağıdakı kimi qruplaşdırılmışdır:




***Şəkil 3.1.1. Tərbiyəvi tədbirlərin təsnifatı***

Şəxsiyyətlərarası münasibətlərin təhlil edilməsində tələbələrin fikirlərinin qiymətləndirilməsi məqsədilə Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri arasında sorğu keçirilib və onların arasında mövcud münasibətlər araşdırılıb.

Tələbələrə belə bir sualla müraciət olunmuşdur: “Qrupunuzdan və onun daxilindəki münasibətlərdən razısınızmı?”

Tələbə qrupu daxilində münasibətlərlə bağlı keçirdiyimiz sorğuya əsasən aşağıdakı nəticələri təqdim edə bilərik:




***Şəkil 3.1.2. Sorğunun nəticələri, faizlə***

İnformasiya texnologiyalarının sürətlə inkişaf edərək cəmiyyət həyatının bütün sahələrinə nüfuz etdiyi müasir dövrdə gənclərin şəxsiyyət kimi formalaşmasında İKT-nin tətbiqi bir tələb kimi qarşıya qoyulmuş, tərbiyə mühitinə informasiya mədəniyyəti anlayışı daxil olmuş, bununla da multimedia vasitələrinin rolu artmışdır. Mediatexnologiyaya əsaslanan müasir vəsaitlərin köməyi ilə yaradılan canlı seyr, vizual müşahidə, səs effektləri öz unikal xassə və funksiyaları ilə təlim-tərbiyə prosesinin səmərəliliyini artırır. Bu məsələlər ***“Tərbiyə işində yeni texnologiyaların tətbiqi”*** adlanan 2-ci paraqrafda şərh edilir.

Yeni pedaqoji texnologiyaların tərbiyə prosesinə tətbiqi zamanı nəzərə alınan əsas məqsədlər aşağıdakıları əhatə edir: tərbiyə olunanların təşəbbüskarlıq, fəallıq və müstəqilliyinin təmin edilməsi; onlarda əxlaqi və mənəvi dəyərlər və sosial kompetensiyaların formalaşması; şəxsiyyətin intellektual və yaradıcılıq baxımından özünüreallaşdırması üçün uyğun şəraitin yaradılması; əməksevərlik, təşkilatçılıq, məsuliyyətlilik, intizamlılıq, mütəşəkkillik kimi mühüm şəxsi keyfiyyətlərin tərbiyə edilməsi; açıq cəmiyyətin açıq sərhədlər şəraitində dünya xalqlarının mədəniyyətinə olan marağın aşılanması.

Dissertasiyada ***“Tərbiyə işinin təşkilinin pedaqoji təhlili və nəticələrin qiymətləndirilməsi”*** 3-cü paraqrafda təqdim edilmişdir.

Tədqiqat işində aparılan pedaqoji təhlilə əsasən ali məktəblərdə tərbiyə prosesinin təşkilində bir sıra prioritet məsələlərin nəzərə

alınmasının zəruriliyi vurğulanır:

-Tərbiyə interaktiv prosesdir. Tərbiyə prosesi qarşılıqlı inam əsasında tərbiyəçi və tərbiyə olunanın səyləri ilə müsbət nəticə verə bilər;

-Tərbiyə olunanların fərdi psixoloji xüsusiyyətləri (xarakteri, maraq və meyli, arzu və istəyi, idealı, temperament növü, səhhəti, ümumi inkişaf səviyyəsi və s.) öyrənilməli və tərbiyə işində nəzərə alınmalıdır;

-Tərbiyə prosesi humanizm prinsipləri əsasında qurulmalı, təcrübəli kadrlar tərəfindən həyata keçirilməlidir;

-Tərbiyə prosesində yeni texnologiyaların tətbiqinə də yer verilməlidir;

-Tərbiyə prosesi dövlətin və cəmiyyətin maraqlarına müvafiq olmalıdır;

-Tərbiyə olunanların hüquqları gözlənilməli, imkan və bacarıqları, yaradıcı təşəbbüskarlığı düzgün qiymətləndirilməli, tərbiyə olunanların mikromühiti nəzərə alınmalıdır;

-Tərbiyə prosesinin təşkili üzrə innovasiya modellərinin və proqramların aşkara çıxarılması və yayılması, tərbiyə işlərinin idarə olunmasında peşəkar səviyyənin artırılması məqsədəuyğundur.

-Tərbiyə işində bütün növ fəaliyyət sahələri üzrə kompleks xarakterli tədbirlər həyata keçirilməli, fərdi və profilaktik tərbiyə işinin yüksək səviyyədə reallaşdırılması təmin olunmalı, təkcə tələbə-gənclər deyil, valideynlər də maariflənməlidir.

Tərbiyə işinin pedaqoji təhlili belə bir qənaətə gəlməyə əsas verir:

-Tərbiyə işi gənclərə öz şəxsi ləyaqətini dərk etmək, öz gücünə əmin olmaq, özünün yaxşı cəhətlərini nümayiş etdirmək və özünə tənqidlə yanaşmağı öyrədir;

-Tərbiyə işi gənclərin mədəni dəyərlərə yiyələnməsinə, milli özünəməxsusluğu, gözəllik və harmoniyanı qavramasına kömək edir;

-Tərbiyə işi tələbələrdə özünüqiymətləndirmə, özünütəhsil və özünütərbiyə motivlərini inkişaf etdirir, gənclərin şəxsiyyət kimi formalaşmasına təkan verir;

-Tərbiyə işi gənclərdə vətənpərvərlik hisslərini formalaşdırır,

onlara Vətənə sədaqət, xidmət və müdafiəsinə hazır olmağı öyrədir;

-Tərbiyə işi gənclərdə öz ictimai missiyasını dərk etməklə məsuliyyət hissi, peşə etikası və peşə mədəniyyəti formalaşdırır;

-Tərbiyə işi cəmiyyətin sosial-iqtisadi və mədəni həyatına gənclərin cəlb edilməsi üçün şərait yaradır;

-Tərbiyə işi sağlam həyat tərzini formalaşdırır;

-Tərbiyə işi cəmiyyətdə layiqli vətəndaş kimi yaşamağı öyrədir.

Onu da qeyd etmək lazımdır ki, tədqiqatın gedişində BDU-da eksperiment qoyulmuş, universitetin müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələrinin özünüqiymətləndirməsi həyata keçirilmiş və tərbiyəvi işlərlə bağlı suallar daxil edilmiş anket sorğusu aparılmışdır. Eksperimentin nəticələri sonuncu fəslin ***"Eksperimental iş"*** başlığı ilə təqdim edilmiş dördüncü paraqrafında verilir. Eksperimental işin aparılmasında seçilən tələbə qruplarında tələbələrin təlimə, davranış qayda və normalarına, sağlam həyat tərzinə, vətəndaşlıq borcuna və s. münasibəti, eləcə də onlarda sosial aktivliyinin öyrənilməsinə cəhd edilmişdir. Tələbələrlə tərbiyəlilik səviyyəsinin müəyyən edilməsi məqsədilə keçirilən sorğuya daxil olan suallar cədvəl 3.4.1.-də təqdim edilmişdir.

***Cədvəl 3.4.1.***

***Tələbələrin özünüqiymətləndirməsi üçün suallar***

| ***Suallar*** | ***Qiymətləndirmə*** | | | | |
|---|---|---|---|---|---|
| ***I. Təlimə münasibət*** | | | | | |
| 1.1. Seminar məşğələlərə və imtahanlara hazırlaşarkən əlavə ədəbiyyatlardan istifadə edirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 1.2. Mühazirələri maraqla dinləyir və lazımi qeydlərimi aparıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 1.3. Mütaliə, yeni biliklərin əldə olunmasına maraq göstərirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 1.4. İntellektual potensialımı inkişaf etdirirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| ***II. Vətəndaşlıq-vətənpərvərlik*** | | | | | |
| 2.1. Dövlət qanunları və simvollarına hörmətlə yanaşıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 2.2. Xalqımın tarixi, adət-ənənələri ilə yaxından maraqlanıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 2.3. Konstitusion hüquq və vəzifələrimi bilirəm. | 4 | 3 | 2 | 1 | 0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.4. Vətənə xidmətə və onun müdafiəsinə hazır olduğumu düşünürəm. | 4 | 3 | 2 | 1 | 0 |
| ***III.Əxlaqi-mənəvi*** | | | | | |
| 3.1. Davranış normalaarı və qaydalarına əməl edirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 3.2. İnsanlara anlayışlı, tolerant, qayğıkeş və həssaslıqla yanaşıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 3.3. Ünsiyyətdə ədəbli və nəzakətliyəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 3.4. Hirsimi cilovlamağı bacarıram. | 4 | 3 | 2 | 1 | 0 |
| ***IV. Sağlam həyat tərzi*** | | | | | |
| 4.1. Şəxsi gigiyena qaydalarını gözləyirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 4.2. Zərərli vərdişlərdən tam imtina etməyə çalışıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 4.3. İdmanla məşğul olmağı xoşlayıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 4.4. Düzgün və sağlam qidalanmağıma fikir verirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| ***V. Estetik*** | | | | | |
| 5.1. Həyatda gözəllik və harmoniyanı dəyərləndirirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 5.2. Teatr, muzey, sərgiləri və digər mədəni mərkəzləri ziyarət xoşuma gəlir. | 4 | 3 | 2 | 1 | 0 |
| 5.3. Xarici görünüşümə və geyimimə fikir verirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 5.4. Musiqi, bədii və ya tətbiqi yaradıcılıqla məşğulam. | 4 | 3 | 2 | 1 | 0 |
| ***VI. Sosial aktivlik*** | | | | | |
| 6.1. Üzərimə düşən tapşırığın öhdəsindən uğurla gəlirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 6.2. Haqlı olduğumu bildikdə israr etməyi bacarıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 6.3. İctimai işlərdə fəal iştirak edirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 6.4. Başladığım işi axıra çatdırıram. | 4 | 3 | 2 | 1 | 0 |
| ***VII. Özünütərbiyə*** | | | | | |
| 7.1. Davranış və emosiyalarımı idarə etməyi bacarıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 7.2. Özümə tənqidi yanaşır, səhvlərimi etiraf edə bilirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 7.3. Düşündüklərimi reallaşdırmağa çalışıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 7.4. Öz hərəkətlərimə və davranışıma görə cavabdehəm. | 4 | 3 | 2 | 1 | 0 |
| ***VIII. Tolerantlıq*** | | | | | |
| 8.1. İnsanların fərdi xüsusiyyətlərini qəbul | 4 | 3 | 2 | 1 | 0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| etməyə çalışıram. | | | | | |
| 8.2. Düşmənçilik, təcavüz və zorakılıq əleyhinəyəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 8.3. Başqa xalqların adət-ənənələrinə hörmətlə yanaşıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 8.4. Hər hansı bir hadisəyə fərqli yanaşmanın, fikirlərdə plüarizmin mümkünlüyünü dərk edirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| ***IX. Əməksevərlik*** | | | | | |
| 9.1. İnsan şəxsiyyətinin formalaşmasında əməyin müstəsna rolunu dərk edirəm. | 4 | 3 | 2 | 1 | 0 |
| 9.2. Zəhmətkeş insanlara pozitiv yanaşıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 9.3. Zehni və fiziki əməyi tənzimləməyə çalışıram. | 4 | 3 | 2 | 1 | 0 |
| 9.4. Kreativ təşəbbüsləri dəyərləndirirəm. | 4 | 3 | 2 | 1 | 0 |

Tələbələrə göstərilən sualları oxuyub onları cavablandırmaq və özlərini 5 ballıq (4,3,2,1,0) şkala üzrə qiymətləndirmək tapşırılmışdır.

| 4 | **3** | **2** | **1** | **0** |
|---|---|---|---|---|
| daim, həmişə | çox vaxt | bəzən | nadir hallarda | heç vaxt |

Bununla da, onların maraq və tələbatlarını, motivlərini aşkar etməyə çalışmışıq. Tələbə qruplarında əldə edilən nəticələr təhlil edilərək ümumiləşdirilmiş, sorğu bitdikdən sonra onun hər bir bəndi üzrə nəticələr toplanılmış, 16-ya (balların maksimum sayına) bölünmüş, daha sonra bütün punktlar üzrə göstəricilər toplanılaraq 9-a bölünmüşdür. Sonda hər bir tələbənin nəticəsi toplanılmış, tələbələrin ümumi sayına bölünmüşdür.

Belə bir metodun köməyi ilə fərdi olaraq hər bir tələbənin, eyni zamanda bütövlükdə qrupun tərbiyəlilik səviyyəsini müəyyən etmək mümkün olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, göstərilən metod vasitəsilə müxtəlif universitetlərdə fərqli ixtisaslar üzrə təhsil alan tələbələr arasında sorğu aparmaq olar.

Ümumi nəticəyə görə aşağı, orta və yüksək səviyyələr müəyyən

edilmişdir:

Aşağı səviyyə (0,5-ə qədər): Qeyri-sabit, özünü zəif biruzə verən davranış təcrübəsi ilə xarakterizə olunur. Şəxsiyyətin davranışı onun daxili tələbatları ilə deyil, xarici tələblər və göstərişlər ilə nizamlanır, özünütənzimləmə situativ xarakter daşıyır, ünsiyyət və qarşılıqlı təsirə psixoloji hazırlıq aydın şəkildə ifadə olunmur.

Orta səviyyə (0,6-0,8): Şəxsiyyətin davranışında sabitliyin və özünütənzimləmənin mövcudluğu ilə xarakterizə olunur. Fəal ictimai mövqe, ünsiyyət və qarşılıqlı təsirin zəruriliyinin dərk olunması nəzərə çarpmır, şəxsiyyətin xarakter xüsusiyyətləri arasında bəzi çatışmazlıqlar özünü göstərir.

Yüksək səviyyə (0,8-1): Sabit və müsbət əxlaqi davranış təcrübəsinin mövcudluğunu və fəal ictimai mövqeyin yaranmasını göstərir. Ünsiyyət və qarşılıqlı təsirdə stabil psixoloji ustanovkalar da nəzərə çarpır.

Eksperimentin gedişi diqqətlə izlənilmiş, müxtəlif fakültələr üzrə təhlil edilmiş, riyazi-statistik metoddan istifadə olunaraq nəticələr müəyyənləşdirilmişdir. Eksperimental və kontrol qrupların tələbələrinin özünüqiymətləndirməsinin nəticələri təqdim etdiyimiz cədvəl 3.4.2-də öz əksini tapmışdır.

***Cədvəl 3.4.2.***

***Eksperimental və kontrol qrupların tələbələrin özünüqiymətləndirməsinin nəticələri***

| Fakültələr | kurs | Tələbələrin sayı, nəfərlə | | Nəticələr | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | yüksək | | orta | | aşağı | |
| | | eks. | kont. | eks. | kont. | eks. | kont. | eks. | kont. |
| Filologiya | II | 55 | 54 | 18 | 14 | 30 | 27 | 7 | 14 |
| Fizika | II | 46 | 45 | 15 | 12 | 26 | 22 | 5 | 12 |
| Sosial elmlər və psixologiya | III | 28 | 27 | 9 | 7 | 15 | 13 | 4 | 8 |
| Beynəlxalq münasibətlər | III | 22 | 23 | 7 | 5 | 12 | 10 | 3 | 6 |
| Coğrafiya | III | 25 | 26 | 9 | 6 | 14 | 11 | 2 | 8 |

Tələbə qruplarında əldə etdiyimiz nəticələri təhlil edərək ümumiləşdirdik. Eksperimental qruplarda 176 nəfər tələbədən 32%-i (58 nəfər) yüksək, 56%-i (97 nəfər) orta və 12%-i (21 nəfər) aşağı nəticə göstərmişdir. Kontrol qruplarda 175 nəfər tələbədən 25%-nin (44 nəfər) nəticələri yüksək, 47%-nin (83 nəfər) orta və 28%-nin (48 nəfər) isə aşağı olmuşdur.

Eksperimental qrup tələbələri ilə təlim prosesində və tədrisdənkənar vaxtlarda tərbiyəvi fəaliyyətlə bağlı işlər aparılmış, daha sonra anket sorğusu keçirilmişdir. Eksperimentin yoxlayıcı mərhələsində tələbələrin keyfiyyət göstəricilərinə daha çox fikir verilmişdir. Eksperimental və kontrol qrup tələbələri arasında anket sorğusunun nəticələri cədvəl 3.4.3.-də əks etdirilmişdir.

***Cədvəl 3.4.3.***

***Eksperimental və kontrol qruplarda anket sorğusunun nəticələri***

| № | Cavab almaq istədiyimiz məsələlər | Səviyyələr | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yüksək | | Orta | | Aşağı | |
| | | eks. | kont. | eks. | kont. | eks. | kont. |
| 1. | Şəxsiyyətin tərbiyə edilməsində ali məktəbin rolunu necə qiymətləndirirsiz? | 29 | 22 | 40 | 39 | 18 | 25 |
| 2. | Ali məktəb, ilk növbədə, mütəxəssis və ya şəxsiyyət yetişdirməlidir? | 31 | 28 | 32 | 28 | 24 | 30 |
| 3. | Tərbiyəvi işdə hansı amillər daha əhəmiyyətlidir? | 27 | 19 | 47 | 46 | 13 | 21 |
| 4. | Ali məktəbdə tərbiyə işinin təşkilində aparıcı qüvvə. | 22 | 13 | 45 | 44 | 20 | 29 |
| 5. | Tərbiyənin qiymətləndirilməsi meyarları necə olmalıdır? | 26 | 17 | 38 | 39 | 23 | 30 |
| 6. | Tərbiyəvi işlərin effektivliyini artırmaq üçün təklifləriniz. | 30 | 21 | 41 | 42 | 16 | 23 |

Nəticələrin müqayisəli təhlilinə əsasən belə qənaətə gəlmək olar ki, eksperimental qrupun tələbələrinin göstəriciləri kontrol qrupun tələbələrinin göstəricilərindən yüksək olmuşdur. Nəticələr diaqram 3.4.1.-də təqdim edilmişdir.




*Diaqram 3.4.1. Eksperimental və kontrol qrupların nəticələri, faizlə*

Eksperimental işi yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, gənclərin özünüreallaşdırması və özünüinkişaf etdirməsində ali məktəb mühitini faydalı və əlverişlidir. Burada tələbələrin tərbiyəsi üzrə sistemli, məqsədyönlü iş öz səmərəsini vermişdir.

Qeyd olunanları nəzərə alaraq aşağıdakı **nəticələri** təqdim edə bilərik:

1.Tərbiyə işi sivilizasiyanın meydana gəlməsi ilə yanaşı zəruri gerçəkliyə çevrilmiş, tarixi bir yol keçərək cəmiyyətin tələblərinə müvafiq təkmilləşmişdir. İnsan şəxsiyyəti, onun keyfiyyətlərinin öyrənilməsi hər zaman tədqiqatçılarda maraq doğurmuşdur. Gənclərin tərbiyə ideyası cəmiyyətin inkişaf etdiyi bir vaxtda yenidən aktuallaşmışdı.

2. İnsanın inkişaf perspektivi onun aldığı təhsilin keyfiyyəti və

tərbiyəsindən asılıdır. Cəmiyyətin elitar təbəqəsinin formalaşması, insanın daha sivil və kamil səviyyəyə yüksəlməsi, ixtisaslı mütəxəssis kadr hazırlığında, şəxsiyyətin sosial oriyentasiyası, cəmiyyətdə özünütəsdiqi və identifikasıyasında ali məktəbdə tərbiyə işinin təşkili çox əhəmiyyətlidir.

3. Ali məktəb sosiomədəni mühit formalaşdırır, tədris prosesinin tərbiyəvi komponentinin inkişafına imkan yaradır. Tərbiyə işi üzrə sistemin komponentlərini təhlil edərək belə bir qənaətə gəlirik ki, tərbiyə işinin təşkili üzrə işin sistemi üç əsas funksiyanı özündə birləşdirir:

-birləşdirici: tərbiyəvi təsirləri birləşdirir;

-nizamlayıcı: tərbiyə prosesini tənzimləyir, onu idarə edir;

-inkişafetdirici: tərbiyə sisteminin dinamikasını təmin edir.

4. Keyfiyyətli ali təhsil və mükəmməl tərbiyə tələbə-gənclərin uğurlu gələcəyinin təminatıdır. Təhsilin keyfiyyəti və səmərəliliyi təlim-tərbiyə proseslərinin qarşılıqlı təsiri, eləcə də onların keyfiyyəti və səmərəliliyindən asılıdır.

5. Hər bir fərdi "tərbiyə etməzdən" əvvəl onun təbii keyfiyyətləri, emosional-psixoloji durumu, səhhəti, ümumi inkişaf səviyyəsi, maraq və meyli, özünəməxsus cəhətləri öyrənilməlidir. Yəni tərbiyə işi öyrətməkdən yox, öyrənməkdən başlanır.

6. Tərbiyə işinin planlaşdırılmasının əsas mahiyyəti pedaqoji hadisələrin və proseslərin gələcək vəziyyətini qabaqcadan proqnozlaşdırmaq və arzu olunan nəticələrin əldə edilməsi üçün fəaliyyət sistemini nəzərdə tutur. Tərbiyə işinin planlaşdırılmasında müvafiq prinsiplər (məqsədəuyğunluq, aktuallıq, elmilik və texnolojilik, sistemlilik, konkretlik, fəaliyyət ardıcıllığı və s.) tədqiqat işində təhlil olunmuşdur.

7. Tərbiyə işinin təşkilinin vasitə və metodları tərbiyəvi fəaliyyətin məqsəd və məzmunu ilə bağlı olduğundan tərbiyə prosesinin reallaşdırılmasının mühüm ünsürlərindəndir. İnformasiya texnologiyalarından istifadə etməyi bacarmayan şəxs dinamik inkişaf edən cəmiyyətin adaptasiya mexanizmlərindən məhrum ola bilər. Müasir dövrdə tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan yararlanmadan və rəqəmsal bacarıqlarsız məqsədə çatmaq olmaz.

8. Tərbiyəvi fəaliyyət konsepsiyasına uyğun olaraq ali məktəbdə gənclərlə tərbiyə işi mənəvilik, dövlətçilik, vətənpərvərlik, kollektivizm, qarşılıqlı yardım kimi ənənəvi dəyərlərlə yanaşı, təşəbbüskarlıq, kreativlik, tolerantlıq, tədbirlilik kimi yeni dəyərlərə söykənərək həyata keçirilməlidir.

9. Gənclərin tələbəlik dövründə müəllimin parlaq şəxsiyyəti, geniş erudisiyası və yüksək mədəniyyəti ilə qarşılaşması əhəmiyyətlidir. Tələbələrə bilavasitə tərbiyəvi təsiri müəllim çoxsaylı pedaqoji bacarıqların köməyi ilə həyata keçirir. Onlara aiddir: pedaqoji vəziyyətləri təhlil etmək; real və düzgün qiymətləndirmə bacarığı; lakonik və düşündürücü suallar vermək; tələbələri müzakirəyə cəlb etmək; yeni texnologiya və təfəkkür əməliyyatlarından istifadə etmək; öz hisslərini və münasibətini səslə, mimika, jestlə ifadə etmək və s.

10. Bu gün tərbiyəçi ilə tərbiyə olunanlar arasında münasibətlərin mahiyyəti dəyişmiş, əməkdaşlıq forması almışdır. Şəxsiyyətin formalaşmasında tərbiyə prosesinin iştirakçıları arasında əlaqələrə yeni müstəvidən yanaşma tələb olunur.

11. Elmi cəhətdən əsaslandırılmış meyar və göstəricilər ali məktəbin tərbiyə sisteminin səmərəliliyinin qiymətləndərilməsində tələbələrin tərbiyəlilik səviyyəsinin üzə çıxarılması və onun dinamikasını göstərməyə imkan verir.

Tədqiqatın nəticəsində əldə etdiyimiz qənaətlərə istinadən **təkliflərimizi** təqdim edirik:

1. Tərbiyəvi təsir strategiyasını düzgün müəyyənləşdirmək üçün hər hansı ali məktəbin tələbə mühitində olan aktual problemlərin spektri aydın təqdim edilməsi məqsədəmüvafiqdir.

2. Bu gün tələbə-gənclər arasında emosional - psixoloji gərginliklərin aradan qaldırılması üçün praktik metodların işlənib hazırlanması, ali məktəblərdə sosial - psixoloji yardım xidmətinin mövcudluğu və təkmilləşdirilməsi vacibdir.

3. Elektron kitabxanaların universitetin əsas reytinq göstəricilərindən biri olduğunu nəzərə alsaq, kafedraların elektron tədris kontentləri bazasında ali tədris müəssisəsi miqyaslı elektron kitabxanaların yaradılması və onlardan istifadə vasitələrinin təmin

olunması tədbirlərinin genişləndirilməsi məqsədəuyğundur.

4. Universitetlərin hollarındakı monitorlarda zərərli vərdişlər əleyhinə, sağlam həyat tərzini təbliğ edən video çarxların nümayiş etdirilməsi səmərəli vasitələrdəndir.

5. Tərbiyə prosesinin təşkili üzrə innovasiya modellərinin və proqramların aşkara çıxarılması və yayılması, tərbiyə işlərinin idarə olunmasında peşəkar səviyyənin artırılması, əvvəlki illərin təcrübəsi, müvafiq elmi-metodik ədəbiyyatla tanışlıq, pedaqoji intuitsiya və s. gərəkli ola bilər.

6. Tərbiyə işinin planlaşdırılması və təşkilində universitetlər-arası təcrübə mübadiləsinin genişləndirilməsi, ən yaxşı ali məktəb ənənələrindən faydalanmaq əhəmiyyətli ola bilər.

7. Son olaraq tərbiyə işinin əsas subyektləri olan müəllim və tələbə fəallarının motivasiyasını tövsiyə edərdik.

Dissertasiya işinin əsas nəzəri müddəaları və praktik təklifləri **elmi məqalələrdə və elmi-praktik konfransların tezislərində** öz əksini tapmışdır:

1. Tələbələrin şəxsiyyət kimi formalaşmasına dair // Azərbaycan məktəbi, – 2013, №3. – s.100-103

2. Gənclərin tərbiyəsində Heydər Əliyev nümunəsi. // Ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunan “Müasir təhsilin aktual problemləri” mövzusunda respublika elmi-praktik konfransının materialları. Azərbaycan Resublikası Təhsil İnstitutunun Elmi əsərləri – 2013, №3. – s.129-130

3. Tərbiyə prosesində yeni pedaqoji texnologiyaların tətbiqi. // “Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problem-ləri” mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. – Naxçıvan, 6 dekabr, 2013. – s.114-116

4. Tərbiyə prosesinin təşkilinin prioritet məsələləri. // Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfransının materialları. – Bakı, 19-20 dekabr, 2013. – s.413-415

5. Роль педагога в организации воспитательной работы в вузе. // «Профессионализм педагога: сущность, содержание, перспективы развития» Научные труды международной научно-практической конференции. – Москва, 12-14 марта 2014 г. –

с.421-422

6. Estetik tərbiyə və şəxsiyyətin mənəvi zənginliyi // Azərbaycan məktəbi – 2014, №5.– s.58-62

7. Tədrisdənkənar tərbiyə işinin təşkilində yeni pedaqoji texnologiyaların rolu // “Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları” mövzusunda beynəlxalq elmi konfransın materialları. –Naxçıvan, 16-17 dekabr 2014. – s.250-251

8. Tələbə-gənclərin intellektual tərbiyəsi prosesinin nəzəri aspektləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri 2015, №1. – s.233-236

9. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında səriştəli müəllim amili // Doktorantların və gənc tədqiqatçıların XIX respublika elmi konfransının materialları. - [2 clilddə]. – c.2. – Bakı, 7-8 aprel, 2015 – s.326-327

10. Ünsiyyət mədəniyyəti şəxsiyyətin mənəvi keyfiyyəti kimi // Naxçıvan Müəllimlər İnstitutu. “Təhsil kurikulumları: praktik tətbiqlər” mövzusunda respublika elmi konfransın materialları. Naxçıvan, 24 aprel 2015 – s.15-17

11. Milli mentalitet və şəxsiyyətin tərbiyəsi // Ümummilli lider Heydər Əliyevin 92 illik yubileyinə həsr edilmiş “Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması” mövzusunda VII respublika elmi-praktik konfransının materialları. – Bakı, BDU 7 may 2015. – s.479-482

12. Muzey mühiti gənclərlə təlim-tərbiyə prosesinin mühüm komponenti kimi. // Azərbaycan məktəbi – 2015, №3 – s.79-83

13. Основные направления планирования воспитательной работы со студентами // Известия Самарского научного центра РАН, м.17, 2015, № 1– с. 866-869

14. Ali məktəbin sosial-mədəni mühiti tərbiyə işinin təşkilinin əsas amili kimi // Bakı Qızlar Universitetinin Elmi əsərləri – 2015, №2.– s.79-83

15. Ориентация студентов на здоровый образ жизни как основная цель физического воспитания // Научный журнал Института социологии Российской Академии Наук. “Теория и практика общественного развития” – 2015, №18.– с.318-321

16. Vətəndaşlıq tərbiyəsi şəxsiyyətin sosiallaşması komponenti kimi // Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu. "Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfransın materialları.–Naxçıvan şəh., 25 noyabr 2016. – s.100-101

17. Воспитание личности в современной социально-культурной среде: педагогический анализ проблемы // Российская Академия Образования. Материалы Международной научно-практической конференции «Общее и особенное в культурах и традициях народов». –Москва, 28-29 сентября 2017 г.– с.387-388

18. Şəxsiyyətin sosiallaşması vətəndaşlıq tərbiyəsi konteks-tində // Azərbaycan məktəbi – 2022, №3. – s.122-126

19. Социально-психологические аспекты межперсональных отношений в студенческой среде // Modern humanities success – 2025, № 2.

Dissertasiyanın müdafiəsi _____ _________ 2025-ci il tarixində saat ______da Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1096, Bakı şəhəri, Məhsəti Gəncəvi küçəsi - 41, (Neftçilər kampusu)

Dissertasiya ilə Xəzər Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Xəzər Universiteteinin rəsmi internet saytında (https: // www.khazar.org) yerləşdirilmişdir.

Avtoreferat _____ __________ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.01.2025

Kağızın formatı: 60x84 1/16

Həcm:  49260 işarə

Tiraj:100

Dissertasiyanın müdafiəsi 11 aprel 2025-ci il tarixində saat 15⁰⁰ da Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1096, Bakı şəhəri, Məhsəti Gəncəvi küçəsi - 41, (Neftçilər kampusu)

Dissertasiya ilə Xəzər Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Xəzər Universiteteinin rəsmi internet saytında (https: // www.khazar.org) yerləşdirilmişdir.

Avtoreferat 27 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.